ZƏKİYYƏ MUSAYEVA
*AMEA – nın A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı*

# AZƏRBAYCAN ELMİ BEYNƏLXALQ HUMANİTAR MÜNASİBƏTLƏR SİSTEMİNDƏ (XX əsr: 80-ci illər)

Bəşəriyyətin son on illərdə keçdiyi tarixi inkişaf yolu tam surətdə göstərir ki, beynəlxalq aləmdə humanitar proseslərin inkişafı insanların, dövlətlərin və dünya siyasi sistemində mövcud ictimai qüvvələrin həyat naminə əməkdaşlıq fəaliyyətinin miqyası, xarakteri, forması, məzmunu və istiqamətlərinin mahiyyəti ilə əsaslı surətdə bağlıdır. Bu qanunauyğunluq XX əsrin 80 – ci illərində də özünün tam gücü ilə göstərmişdir.

Belə Ki, həmin illərdə dünya humanitar prosesləri ictimai həyatın bütün xarakterik inkişaf atributlarını əhatə etmişdir, o cümlədən, elmi sahəni də o özüdə bu prosesin genişlənib miqyasının artmasında dünya sistemində mövcud bütün xalqların, o cümlədən Azərbaycan xalqının potensialını da qucaqlamışdır. Göstərmək lazımdır ki, qeyd olunan XX əsrin 80 – ci illərində Azərbaycan dünyada gedən humanitar proseslərin daha da inkişaf etməsində, onun intellektual bazasının möhkəmləndirilməsində ölkə elmi fikrinin rolundan da hərtərəfli istifadə etmişdir. O, bu humanitar proseslərin təkmilləşməsi işində elmə güclü təsir göstərən bir alim kimi baxmışdır və tədqiqat dövründə özünün humanitar proseslərin elmi bazasının möhkəmləndirilməsi işinə yönəlmiş beynəlxalq fəaliyyətində həmin sahəyə əsas istiyamət kimi ciddi yer vermişdir. Dünya humanitar əlaqələrin genişlənməsi istiqamətində elmi fikrin roluna belə diqqət verilməsi və qayğı göstərilməsi təsadüfi deyildir. Son 100 illik tarixi təcrübə göstərir və sübut edir ki, müasir dövrdə geniş elmi tədqiqatlar aparılmadan və beynəlxalq ictimai həyatın tərəqqisi işinə dünya elminin nailiyyətləri cəlb olunmadan, xüsusi ilə müasir dövrdə bəşəriyyətin çoxsahəli sisteminin inkişafı sürətinə nail olmaq qeyri – mümkündür. Bu da təbii bir qanunauyğunluqdur. Ona görə ki, ictimai həyatın elə sahələri vardır ki, onun inkişafını təmin etmək tək bir ölkənin elmi potensialının gücündən kənardadır. Zamanın irəli sürdüyü elə problemlərvardır ki, onlar bütün ölkələrin, bütün xalqların taleyi və gələcəyi ilə bağlıdır, bir neçə ölkə tərəfindən geniş təşkil edilmiş birgə tədqiqatları tələb edir və bir çox ölkələrdə inkişaf etmiş elm sahələrinin əməkdaşlığı olmadan onların həllini tapmaq müşkil bir məsələdir.

Bəşəriyyət qarşısında duran həmin problemlərdən kosmosun tədqiqi, nüvə istiliyindən dinc məqsədlər üçün istifadə olunması, müasir fizika, biologiya və fiziologiya elmlərinin çox cgiddi problemlərini göstərmək olar. Aydınrdır ki, bunlar bir ölkənin, bir ölkədə yaranmış elmi potensialın problemi deyil, ümumdünya elminin, beynəlxjalq elmi fikrin qarşısında duran problemlərdəndir.

Tədqiqat dövründə mühz bu qanunauyğunluqlar Azərbaycan SSRİ-nin bu istiqamətdə atacağı beynəlxalq addımların əsası olmuşdur. O, əlindən gələni etmişdir ki, ölkənin elmi potensialı bu proseslərdə fəal iştirak etsin, dünya elmi qarşısında duran ciddi məsələlərin həllinə öz töhvəsini verə bilsin. Beləlliklə də, dünyada gedən humanitar proseslərin genişlənməsində Azərbaycan elmi öz yerini tuta bilsin.

Qeyd etmək lazımdır ki, həmin illərdə Azərbaycanın bu istiqamətdə beynəlxalq fəaliyyəti müstəqil həyata keçirilməmişdir. Azərbaycan başqa sahələrdə olduğu kimi, elm sahəsində də beynəlxalq əlaqələrini SSRİ dövləti vasitəsi ilə həyata keçirmişdir. Belə beynəlxalq fəaliyətdə təsadüfi deyildi. Ona görə ki, SSRİ dövlətinin tərkibində yaşayıb-yaradan və fəaliyyət göstərən bir dövlətin elmi fikri idi, ümumi Sovet dövlətinə

məxsus bir elmi tərəqqiyə xidmət edən respublikanın elmi inkişaf sahəsi idi. Burada bir ciddi faktı da göstərmək lazımdır ki, həmin illərdə Sovet elmi fikri çox geniş beynəlxalq əlaqələrə malik idi. O, bu sahədə dünya dövlətləri tərəfindən ən güclü potensiala sahib olan nəhəng bir dövlət kimi qəbul edilmişdir. Bir də ki,onun həmin dövrdə elmi fikri demək olar ki,dünyanın bütün dövlətləri ilə əlaqədə olmuşdur.Bir də faktı göstərmək kifayətdir ki, hər il SSRİ – nin elmi potensialının on minlərlə nümayəndəsi dünyanın 120 – dən yuxarı ölkəsinə səfər etmiş və təxminən bir o qədər xarici ölkənin elmi nümayəndələri Sovet İttifaqında olmuşlar ( 22, s.80 ).Məsələn,təkcə 1980-1985 – ci illərdə 100 minə qədər elmi işçi və mütəxəssis elmi – tədqiqat işləri aparmaq, elmi – texniki kömək və məsləhət vermək,məruzə və mühazirələr oxumaq, beynəlxalq elmi konqreslərdə, konfranslarda, simpoziumlarda və elmi problemlərə həsr olunmuş beynəlxalq səviyyəli tədbirlərdə iştirak etmək üçün xarici ölkələrə səfər etmiş, öz növbəsində eyni məqsədlər üçün xarici ölkələrdən 90 minə qədər alim və mütəxəssis SSRİ – də qəbul edilmişdir (17,№ 7,s.25,1985). Həmin illərdə təkcə SSRİ Dövlət Elmi və Texnika Komitəsi beynəlxalq təşkilatların elmi tədbirlərində iştirak etmək üçün xarici ölkələrə tərkibində 3,2min alim və elmi mütəxəssis olan 1,0 nümayəndə heyəti göndərmişdir. Bundan başqa Dövlət Elm və Texnika Komitəsi hər il xarici ölkələrin 6 mindən 8 minə qədər alim və elmi mütəxəssisinin iştirakı ilə 100 – ə qədər elmi xarakterli tədbirlərin Sovet torpağında keçirilməsini hazırlayıb təşkil etmişdir (17,№2,s.28,1985, 22, s.81).

Bunlardan başqa həmin illərdə Sovet dövlətinin elmi potensialı dünya elmi sistemində beynəlxalq tədqiqat mərkəzlərinin yaranıb formalaşmasında, elmi – tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsində, beynəlxalq əhəmiyyətli elmi problemlərin həllini təmin edə bilən elmi laboratoriya və institutların, şöbə və qrupların elmi tərkibində fəaliyyət göstərmişdir. Belə ki,həmin dövrdə Sovet dövlətinin elmi fikir potensialı dünyada fəaliyyət göstərən 107 beynəlxalq elmi koordinasiya mərkəzində, 3350 beynəlxalq iqtisadi və elmi – texniki təşkilatda və ali təhsil ocaqlarında təmsil edilmiş və ciddi elmi – texniki problemlərin həllinə öz töhvələrini vermişdir (22, s.148, 149, 210), 600 – ə qədər beynəlxalq elmi – iqtisadi, elmi – texniki qeyri – dövlət təşkilatlarının fəaliyyətində fəal iştirak etmişlər. (25, s.47).Təkcə SSRİ Elmlər Akademiyası İnstitutlarının elmi kollektivləri və ayrı – ayrı alimləri 177 beynəlxalq qeyri – dövlət elmi təşkilatının üzvləri olmuş, 50 – dən artıq beynəlxalq elmi proqramm və layihələrin həllində fəal iştirak etmişlər (22,s.81; 13, 19 yanvar, 1983; 25, s.47; 15 mart 1985).

Beləliklə, göstərilən dəlilllər və faktlar göstərir ki, araşdırılan illərdə Sovet elmi fikri dünya elmi fikrin inkişafına çox ciddi təsir göstərə bilən bir elmi potensiala malik olmuşdur. Onu da qeyd etmək lazımdır ki, göstərilən elmi potensialın yaranmasında, inkişafında, onun dünya elmi ilə inteqrasiyasında SSRİ – yə daxil olan bütün respublikaların, xalqların, millətlərin elmi fikir potensiallarının müstəsna rolu olmuşdur. Belə ki, o dövrdə SSRİ dövlətindən beynəlxalq miqyasa çıxan bütün elmi istiqamətlər, fikirlər respublikalarda yaranmış potensiallara arxalanaraq dünya elmi fikri ilə inteqrasiyada olmuşdur. Şübhəsiz ki, həmin prosesdə Azərbaycanın elmi potensialı da bu istiqamətdə qazandığı nailiyyətləri ilə iştirak etmişdir.

Ümumiləşdirilmiş təcrübə göstərir ki, bu ciddi beynəlxalq addımlar hədər getməmişdir. Məhz həmin fəaliyyətin nəticəsidir ki, tədqiqat dövründə Azərbaycan elmi fikri demək olar ki, planetimizin çox yerlərində özünü müəyyən dərəcədə tanıda bilmişdir və tədqiqat dövründə, yəni 80 – ci illərdə Azərbaycan beynəlxalq humanitar proseslər çərçivəsində dünya elmi ilə öz əlaqələrini nəzərə çarpacaq dərəcədə genişləndirmişdir. Ölkənin elmi fikri bir çox ölkələrin alimləri ilə əlaqədar yaranıb Azərbaycan elminin dünya elmi tarixində özünəməxsus yer tutmasına nail olmuşlar. Bu fəaliyyət o dövrdə əldə

olan milli potensialdan və elmi əlaqələrin müxtəlif forma və istiqamətləri vasitəsi ilə həyata keçirilmişdir.

Bir məsələni də unutmaq olmaz ki, həmin illərdə Azərbaycan bu istiqamətdə olan potensialının dünya elminə inteqrasiyası özünəməxsus və çoxsahəli idi. Bu da təsadüfi deyildir. Ona görə ki, həmin dövrdə, əvvəlki illərə nisbətən, respublika elmi fikrinin geniş imkanları var idi. Azərbaycan alimlərinin yaradıcı səsi demək olar ki, dünyanın bütün qitələrindən gəlirdi.

Ən maraqlısı odur ki, Azərbaycanın bu proseslərdə iştirakı elə belə iştirak xatirinə həyata keçirilməmişdir. O çox effektli, təsirli və geniş miqyaslı olmuşdur. Respublika elmi fikrinin o mərhələlərinin hansı tərzdə və miqyasda olmasını aşağıdakı faktlar daha aydın göstərir.Məsələn, tədqiq olunan dövrdə Azərbaycan elmi fikrinin nümayəndələri SSRİ dövlətinin elmi fikrinin on minlərlə nümayəndəsi tərkibində elmi – tədqiqat işləri aparmaq, elmi işlərdə kömək göstərmək, məsləhətləşmələr aparmaq, mühazirələr və məruzələr oxumaq, beynəlxalq elmi konfranslarda və simpoziumlarda iştirak etmək, təcrübə mübadiləsi aparmaq məqsədilə dünyanın 120 ölkəsinə səfər etmişlər. Öz növbəsində, təxminən o qədər də xarici ölkələrdən alimlər SSRİ – yə gəlmiş, o cümlədən Azərbaycanda qəbul edilmişlər. Respublika alimləri və elmi fikrin nümayəndələri o illərdə SSRİ dövlətinin elmi fikrinin nümayəndələri ilə birlikdə fəaliyyət göstərən, yuxarıda qeyd etdiyimiz, 107 elmi koordinasiya mərkəzində, 3350 beynəlxalq iqtisadi və elmi – texniki təşkilatda və ali məktəbdə təmsil edilmişdir (24, s.148-149), 600 – ə qədər beynəlxalq elmi, iqtisadi, elmi – texniki qeyri – dövlət beynəlxalq təşkilatının fəaliyyətində iştirak etmişlər (11, s.126). 1990 – cı ilin əvvəlinə olan məlumata görə Azərbaycan Elmlər Akademiyası, SSRİ EA – nın tərkib hissəsi kimi və onunla birlikdə 177 beynəlxalq qeyri – dövlət elmi təşkilatının fəaliyyətində, 50 – dən çox beynəlxalq proqramm və proqnozların həllində fəal iştirak etmişdir (23, s.81; 11, s.126). Qeyd etmək lazımdır ki, Azərbaycanın bu fəaliyyəti elə belə quru yerdə cərəyan etmirdi, onun elmi fikri əvvəllər də bu sistemində özünəməxsus yer tuturdu. Belə ki, Azərbaycan Elmlər Akademiyası 1953 – cü ildə 10, 1960 – cı ildə 89, 1966 – cı ildə 123, 1974 – cü ildə isə 150 təşkilatın üzvü olmuşdur (11, s.126). Azərbaycan alimləri, SSRİ alimləri ilə birlikdə bu birgə kollektiv iş sistemində çox faydalı əlaqələr yaradır, təcrübə mübadiləsi keçirir və dünya elmi fikrinin inkişafına öz konkret töhvələrini vermişlər. Bu əlaqələr, əlaqə xatirinə deyil, onlar eyni zamanda, alimlərə öz elmi görüşlərini genişləndirmək, dünya elmi fikir standartlarını qavramaqda geniş imkanlar yaradırdı.

Azərbaycan bu istiqamətdə təkcə Sovet ümumi elmi tərəfindən həyata keçirilən beynəlxalq əlaqələrin imkanlarından yox o eyni zamanda özünün əlində olan milli kanallarından da istifadə etmişdir.Belə ki, tədqiqat illərində Azərbaycan elminin bir çox istiqamətləri, o cümlədən, respublikanın kimya, fizika, astronomiya, riyaziyyat, biologiya, fiziologiya, geologiya, coğrafiya və başqa elm sahələrinin alimlərinin nailiyyətləri dünyanın bir çox ölkələrində artıq məşhurlaşmışdır. Məsələn, tədqiq etdiyimiz illərdə 2500 – ə qədər Azərbaycan alimi xarici ölkələrdə elmi səfərdə olmuş, 2000 – ə yaxın öz xarici həmkarını respublikamızda qəbul etmişlər. Təkcə Respublika EA – nın alimləri hər il 50 ölkənin orta hesabla 500 elmi təşkilatı və mərkəz ilə əlaqə saxlamış və müxtəlif elm sahələrini əhatə edən 40 mövzu üzrə birgə tədqiqat işləri aparmışlar ( 5, İş № 7, İş № 3, s.12 – 15; İş № 8, s.6 – 8; İş № 1,s. 3 – 5).

Həmin illərdə Azərbaycan elmi təkcə yuxarıda dediyimiz hallarda yox, həmçinin başqa formalarda da respublikanın elmi beynəlxalq əlaqələrini genişləndirmişlər. O illərdə onların elmi ezamiyyət formasında həyata keçirdiyi yaradıcılıq əlaqələri də təqdirəlayiqdir. Belə ki, tədqiqat dövründə göstərilən yolla Azərbaycan Elmlər Akademiyasının elmin müxtəlif sahələrində çalışan 1500 – dən çox nümayəndəsi xarici ölkələrdə

səfərdə olmuşdur. Onlardan 187 nəfəri elmi-tədqiqat işləri aparmaq, 295 nəfəri elmi tədbirlərdə, konqreslərdə, simpoziumlarda konfranslarda və müşavirələrdə ihştirak etmək üçün, 250-ə qədəri elmi turizm kanalı ilə, 115 nəfəri isə elmi işlərdə kömək göstərmək məqsədilə xarici ölkələrdə olmuşlar. Öz növbəsində Azərbaycan Elmlər Akademiyasının həmin yollarla göstərilən dövrdə xarici ölkələrin 1800-ə qədər alimini qəbul etmişdir. Onlardan 1030 nəfəri elmi-tədqiqat işləri aparmaq üçün respublikamızda olmuşdur (21, s.3-12). Təkcə 1983-1984-cü illərdə həmin yollarla Azərbaycana 400-ə qədər alim gəlmişdir (23, s.83).

Göstərilən işdə demək olar ki, ölkə alimlərinin dəqiq elmldərin əsas elmi istiqamətlərində: müasir fizika, texnika, riyaziyyat və kimya elmlərinin nəzəri və praktiki sahələrində, torpaq elminin bütün istiqamətlərində, neft sənayesi ilə əlaqədar olan elmlər, biologiya, fiziologiya kimi elm sahələrində çalışan alimləri iştirak etmişdir. Məsələn, yuxarıda qeyd olunan həmin illərdə Azərbaycan Elmlər Akademiyasının xarici ölkələrə gedən elmi işçisindən 337-i fizika, texnika və riyaziyyat elmlərinin, 148-i kimya, 168-i torpaq haqqında elmin, 140-ı biologiya elminin nümayəndələri olmuşlar. Bunlardan başqa bü dövrdə Respublikanın 400-ə yaxın iqtisadçı, tarixçi, ədəbiyatçı və ictimai elmlərin digər sahələrinin alimləri xarici ölkələrdə olmuşlar, xarici ölkələrdən isə 600-ə yaxın öz həmkarlarını respublikamızda qəbul etmişlər. Göstərilən illərdə təkcə ali məktəblərdə çalışan 800-ə qədər alim xarici ölkələrdə olmuşdur (5, iş№7, s.7,8,11).

Tədqiqat dövründə respublika elmi beynəlxalq humanitar proseslərin inkişafında, eyni zamanda, elmi ədəbiyyat mübadiləsi, beynəlxalq konfransların, simpoziumların və digər elmi forumların hazırlanıb həyata keçirilməsi yolu ilə də iştirak etmişdir. Demək lazımdır ki, göstərilən itəkcə Azərbaycan Elmlər Akademiyası Böyük fundamental kitabxanası 40 – dan 53 – ə qədər xarici ölkələrdə fəaliyyət göstərən 460 – dan 580 – ə qədər elmi mərkəzlərlə əməkdaşlıq etmişdir. Bu illərdə kitabxana beynəlxalq kitab mübadiləsi yolu ilə xarici ölkələrdən 70.000 artıq müxtəlif elmi ədəbiyyat yollamışdır (4 iş № 4,s.3 – 4; 13. 13 noyabr 1986).Təkcə 1981 – 1985 – ci illərdə o, 48532 ədəd ədəbiyyat yollamış, 51391 ədəbiyat almışdır (22, s.85-86). Araşdırılan vaxtlarda Respublika M.F.Axundov adına Dövlət Kitabxanası xarici həmkarlarına 16000-ə qədər ədəbiyyat yollamış, 13000-dən yuxarı ədəbiyyat almışdır. 80-ci illərdəAzərbaycan alimləri 200-ə yaxın böyük beynəlxalq elmi tədbirlərdə, konqreslərdə simpoziumlarda və digər elmi xarakterli tədbirlərdə iştirak etmişlər (5, iş№7, s.4, 12, 16,5 sentyabr 1985). Ancaq 5 ildə (1981-1985-ci illərdə) Azəbaycan elmi fikrin müxtəlif istiqamətlərinin nümayəndələri 60-dan yuxarı beynəlxalq konqreslərin, konfransların, simpozium və müşavirələrin iştirakçıları olmuşlar. Onların əsərləri 60-dan artıfq xarici ölkədə 30 ildə çapdan çıxmışdır. 20 görkəmli respublika alimi müxtəlif beynəlxalq elmi təşkilatların üzvü seçilmişdir (22, s.86). Araşdırılan dövrdə, demək olar ki, Azərbaycanın özü böyük beynəlxalq elmi tədbirlərin mərkəzinə çevrilmişdir. Göstərilən dövrdə təkcə Bakıda 90-dan yuxarı beynəlxalq elmi konfrans, simpozium, konqress və digər elmi xarakterli tədbirlər keçirilmişdir (21, s.91-92).

Milli elmi fikriniz dündada gedən humanitar proseslərin inkişafına təsiri yuxarıda göstərilənlərlə bitmir. Respublika elmi o dövrdə mövcud olan bütün dövrlərdə də, o cümlədən, sosialist ölkələri, inkişaf etməkdə olan dövlətlər və inkişaf etmiş kapitalimst dövlətləri ilə əməkdaşlıq etmişdir.

Tədqiqat illərində beynəlxalq humanitar proseslərin inkişafına Azərbaycan sosialist ölkələri ilə yaratdığı elmi əlaqələrinin təsiri daha böyük olmuşdur. Belə ki, öyrənilən dövrün, təkcə 1981-1985-ci illəri çərçivəsində respublikanın alimləri sosialist ölkələrində olan həmkarları ilə 60 ən ciddi elmi problem üzərində birgə işləmişlər (5. iş№7, s.7, 22, s.87) Məsələn, fizika elminin müxtəlif istiqamətlərində işləyən və çalışan Azər-

baycan aloimləri bu elmin bir çox problemləri sahəsində, o cümlədən günəş və külək enerjisinin, elektrik, istilik və mexaniki enerjiyə çevrilməsi, onun əsasında yüksək iqtisadi əhəmiyyətli cihaz və dəzgahların hazırlanması ilə əlaqədar elmi-tədqiqat işhində sosialist ölkəldərində fəaliyyət göstərən fizika aloimləri ilə əməkdaşlıq etmişlər. Azərbaycanın astrofizxikləri «İnterkosmos» elmi-istehsal Birliyinin proqrammı əsasında fizika, maqnit ulduzları və müasir astronomiyanın başqa aktual problemlərinin tədqiqi sahəsində, kimya sahəsində çalışan alimlər inqubatorlar və kimyavi-elektrik metodu ilə neft və qaz sənayesində dəmir avadanlıqların erroziyasının müdafiəsi problemləri üzrə, genetika və seleksiya sahəsində çalışan alimlər isə seleksiya və toxumçuluğun tədqiqat istiqamətlərinin nəzəri əsaslarını hazırlamaq və onun əsasında yeni yüksək keyfiyyətli və məhsuldar buğda və ARPA toxumları yaratmaq problemləri sahəsində sosialist ölkələrində çalışan həmkarları ilə geniş tədqiqat işləri aparmışlar. Zooloqlarımız, fiziologiya, kibernetika, geologiya, riyaziyyat, mexanika və digər elm sahələrində çalışan alimlərimiz də bu sahədə sosialist ölkələri ilə sıx əməkdaşlığı olmuşdur (12. 15 aprel 1983). Həmin problemlərin həllində ali təhsil sistemi alimlərinin də böyük xidmətlərini qeyd etmək yerinə düşərdli. Həmin illərdə respublikamızda mövcud olan Azərbaycan Politexnik institutu İnşaat Mühəndisləri İnstitutu və Xalq Təsərrüfatı İnstitutunun alimlərinin elmi əlaqələri daha geniş olmuşdur (1, iş№8, s.12).

Göstərilən dövrdə Azərbaycanını sosialist ölkələri ilə elmi əlaqələri həm fərdi və həm də kollektiv , həm birtərəfli və həm də ikitərəfli əsaslarda inkişaf etmişdir. Respublika alimləri Macarıstan, Polşa, Yuqoslaviya, Almaniya Demokratik Respublikası, Çexoslovakiya, Rumıniya, Kuba, Vyetnam və digər sosialist ölkələrində artıq tam məşhurlaşmışdılar. Ümumiyyətlə, elmimizin bu tip xarici ölkələrlə əlaqələri çox sərfəli və geniş olmuşdur. Bu əlaqələr, əsasən, birgə elmi-tədqiqat işləri aparmaq, kadr hazırlanması sahəsində əldə edilən təcrübə mübadiləsi, beynəlxalq yarmarkalarda iştirak etmək, elmi ədəbiyyat və cari çap materialları sahəsində mübadilə, beynəlxalq konfranslarda, simpoziumlarda və konqreslərdə iştirak etmək istiqamətində həyata keçirilmişdir. Həmin əlaqələrin miqyası barədə aşağıdakı faktlar, bizcə, çox yaxşı təsəvvür yaradır. Məsələn, tədqiqat dövründə təkcə elmi ezamiyyət, elmi turizm və təcrübə mübadiləsi məqsədilə Azərböaycan Elmlər Akademiyası 400-dən yuxarı elmi əməkdaşı, görkəmli alimi sosialist ölkələrində çalışan həmkarlarının qonağı olmuş və onlarla birlikdə elmi sahədə tədqiqat işləri aparmış, təcrübə mübadiləsi keçirmiş, həmin ölkələrdən isə müxtəlif elm sahələrində çalışan 1000-dən yuxarı alim həmkarlarını Azərbaycanda qəbul etmişlər. Təkcə 1980-1985-ci illərdə həmin ölkələrdə 209 Azərbaycan alimi olmuş, Azərbaycanda iölkələrdən 557 nəfər elmi işçi qəbul edilmişdir (21, s.81-125; 32-55; 41-64; 87-108; 51-68; 186; 92, 93). Tədqiq olunan dövrdə Azərbaycan elminin sosialist ölkələrinin 120-dən 135-ə qədər elmi idarələri, institutları və kitabxanaları ilə əlaqəlsi olmuşdur. Təkcə Azərbaycan Elmlər Akademiyasının fundamental kitabxanası və M.F.Axundov adına Respublika Dövlət kitabxanası həmin illərdə sosialist ölkələrinə 3800 nüsxədən yuxarı elmi ədəbiyyat göndərilmiş və 36000-dən yuxarı elmi ədəbiyyat almışlar (4, iş№4, s.10, iş №2, s.3-7; 22, s.93). hmin illərdə Azərbaycan və sosialist ölkələri alimlərinin iştirakı ilə Bakı şəhərində 70-dən yuxarı simpozium, beynəlxalq konqress, konfrans, müşavirə və digər elmi xarakterli beynəlxalq tədbirlər keçirilmişdir. Azərbaycan alimləri isə həmin illərdə ayrı-ayrı sosialist ölkələrində keçirilmiş 50-dən yuxarı beynəlxalq simpozium, sessiya, konfrans, konqress və digər elmi tədbirlərdə iştirak etmişlər (21, s.81-110; 43-50; 58-67; 72-90; 45-61).

Tədqiqat illərində Azərbaycan elmi fikrinin beynəlxalq aləmdə bu və ya digər dərəcədə yayılmasında, onun dünya miqyasında öz yerini tutulmasında, xalqlar arasında və dünyada gedən elmi əməkdaşlığın genişlənməsində, yeni mövqeyə çıxmasında, res-

publikada yaranmış elmi potensialın mühüm istiqamətlərinin sosialist ölkələrində beynəlxalq səviyyədə keçirilən böyük elmi və iqtisadi əhəmiyyətli tədbirlərdən olan yarmarkalarda və sərgilərdə iştirak etməsi olunmuşdur. 80-ci illərdə bu formada sosialist ölkələri ilə genişlənən elmi əməkdaşlıq diqqəti cəlbedici miqyasda olmuşdur. Belə ki, həmin illərdə Azərbaycan elmi fikri Plovdivdə və Poznanda (polşa), Leypskdə və Berlində (ADR), budapeştdə (Macarıstan) və digər sosialist ölkələrində keçirilmiş beynəlxalq sərgi yarmarkalarda iştirak etmişdir (24, s.5-7; 22, s.96; 11, s.133).

Öyrənilən dövrdə respublika elmi fikrinin genişlənməsi beynəlxalq humanitar əlaqələr sistemində və dünya elmi ilə əlaqələrinin intensivləşməsi istiqamətində aparılan işlərdə onun rolunun artmasında və öz layiqli yerini tutmasında Azərbaycanın asiya, Afrika və Laatın Amerika ölkələri imlə bu sahədə olan əlaqələrinin əhəmiyyəti az olmamışdır. Araşdırılan dövrdə respublikanın elm sahəsində çalışan alimlərinin, ümumiyyətlə Azərbaycan elminin səsi başqa ölkələrlə yanaşı olaraq asiya, Afrika və latın amerikası ölkələrindən də arasıkəsilmədən gəlirdi. Respublikanın elmi fikri həmin ölkələrdə bir çox mühüm elmi problemlərin həllincə böyük rol oynamışdır. Belə münasibətlər, Azərbaycanda demək olar ki, həmin qitələrdən olan dövlətlərin ən böyükləri ilə yaranıb inkişaf edirdi. O dövrdə Azərbaycanın Hindistan, Əlcəzair, İraq, Türkiyə, İran, Livan, LXDR, YƏR,Nigeriya, Efiopiya, Anqola, Suriya, Küveyt, Venesuela, Əfqanıstan, qvineya və digər dövlətlər ilə həmin sahədə əlaqələri xeyli inkişaf etmişdir. Bu əlaqələrin əhəmiyyəti ondan ibarət olmuşdur ki, onlar o dövrdə mövcud olan ən ciddi elmi fikir sahələrini əhatə edirdi. Azərbaycan elmi fikrinin ən vacib istiqamətləri bu əlaqələrdə iştirak etmişdir və onlar özlərini bütün mümkün olan formalarda göstərə bilmişdir. Ümumiyyətlə, tədqiqat illərində Azərbaycan elmi fikrinin beynəlxalq səviyyədə həmin ölkələrlə elmi potensiallarının inkişaf etdirilməsi, elmi-texniki sahədə əldə edilmiş təcrübəni mənimsəmək, elmi idarələrin, laboratoriya və qrupldarın, elmi mərkəzlərin iş sistemi və iş metodlarını öyrənmək, respublikada elmi kadrların hazırlanma sistemi və forması ilə tanış olmaq, elmi-texniki kömək, elmi nailiyyətlər, elmi məlumat və elmi ədəbiyyat mübadiləsi, birgə elmi-tədiqaqt işləri aparmaq byenəlxalq və Milli elmi konqreslərdə, simpoziumlarda, elmi-nəzəri konfranslarda və digər elmi xarakterli böyük tədbirlərdə iştirak etmək və sair. Azərbaycan elmi və texniki fikrinin demək olar ki, Asiya, Afrika və Latın Amerikası ölkələrinin əksəriyyəti ilə göstərilən bu istiqamətlər sahəsində sıx əlaqəsi olmuşdur. Lakin bu istiqamətdə aparılan işləri yuxarıda göstərdiyimiz bütün formaların timsalında aşılamaq imkanı olmadığı üçün həmin sahələrin bəzilərinin geniş izahını verməyi məqsədəuyğun hesab edirik. Belə ki, tədqiq olunan illərdə təkcə Azərbaycan Elmlər Akademiyasının 130-dan çox elm xadimi və işçisi həmin qitələrdən olan ölkələrdə olmuşlar, öz növbəsində isə həmin ölkələrin 400 nəfərdən çox elm nümayəndəsi respublikamızda qəbul edilmişdir. Həmin illərdə respublikamızın ali məktəblərində çalışan alimlərin 300-dən yuxarı nümayəndəsi həmin ölkələrə müxtəlif elmi məqsədlər üçün səfər etmişlər (1, iş№5, s.3-6; iş №8, s.11-13). Bu dövrdə Azərbaycan alimləri Asiya, Afrika və Latın Amerikasının 30-dan çox ölkəsinə göndərilmişdir. Təkcə Azərbaycan Elmlər Akademiyasının elmi kitabxanası həmin ölkələrə 5000 ədəddən çox elmi əsər göndərmiş və öz növbəsində həmin ölkələrin elmi kitabxanalarından 4500 ədəddən yuxarı elmi ədəbiyyat almışdır və 45-dən 130-a qədər elmi təşkilat və kitabxana ilə elmi informasiya sahəsində əlaqələri olmuşdur. Tədqiqat illərində Azərbaycan alimləri adı çəkilən ölkələrdə və Bakıda həmin ölkələrin elm nümayəndələrinin iştirakı ilə keçirilən onlarla beynəlxalq elmi konqress, konfrans, simpozium və digər beynəlxalq tədbirlərdə iştirak etmişlər. Azərbaycan elmi qeyd olunan dövrdə İzmir, bağdad, Qahirə, Dəməşq, XIX Beynəljxalq Əlcəzair yarmarkalarında və Hindistanda Suriyada, İranda, Anqolada, İndconeziya dövlətlərində keçirilmiş sərgilərdə iştirak etmişdir (5, iş№7, s. 7-8;

Tarix və onun problemləri, №3 2009
iş№8, s.3-4; 12. 24-25 sentyabr 1980; 19 noyabr 1980, 24 sentyabr 1981; 11 iyul 1982, 22 sentyabr, 29 noyabr 1982).

Tədqiqat dövründə Respublikanın Asiya, Afrika və Latın Amerikası ölkələri ilə humanitar əlaqələri təkcə yuxarıda göstərilən formalarla və istiqamətlərlə həyata keçirilməmişdir. Həmin əlaqələr bu çərçivədən çıxıb göstərilən ehtiyac olan sahələrinə də öz təsirini gözləmişdir. Həmin sahələrdən biri tədqiqat dövründə o qitədən olan bəzi ölkələrin yüksək dərəcəli Milli kadrlara olan ehtiyaclarının ödənilməsi probleminin həll məsələsi olmuşdur. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası bu sahədə həmin ölkələrin tarixində çox mühüm rol oynamışdır. Demək olar ki, respublikamız bu vacib problemin həllində ən güclü bir mərkəzə çevrilmişdir. Hər il respublikada həmin ölkələrin minlərlə gənc nəslinin nümayəndələri təcrübə keçmiş, təhsil almış, namizədlik dissertasiyası müdafiə etmiş, Azərbaycan alimlərinin elmi təcrübəsinə yiyələnmişdir. Təkcə bunu göstərmək kifayətdir ki, tədqiq olunan dövrdə Azərbaycanda həmin ölkələrin 70-dən çox nümayəndəsi naimzədlik dissertasiyası müdafiə etmiş, 500-ə yaxın nümayəndəsi isə elmi təcrübə keçirilmişdir. Bu işdə demək olar ki, Azərbaycan elmi-texqniki fikrinin bütün istiaməqtəlri, bir çox Ali və Orta ixtisas məktəbləri iştirak etmişlər. Bu işdə Azərbaycan Elmlər Akademiyasının 30-dan yuxarı elmi idarəsi və sahə elmi-tədqiqat institutu, 18 Ali və Orta İjxtisas məktəblərinin kollektivləri iştirak etmişlər. Təkcə 1980-1985-ci illərdə Respublikamızda Zimbabve, Əfqanıstan, Malaziya, Əlcəzair, Nigeriya, Həbəşistan, Anqola, Suriya, Küveyt və bir çox digər ölkələr üçün 180-ə qədər yüksək ixtisaslı mütxəssis və aspirantura yolu ilə 20 nəfərdən yuxarı elmi kadr hazırlanmışdır. Ümumiyyətlə, həmin dövrdə respublikamızda göstərilən ölkələr üçün bir sıra sahələr üzrə çoxlu sayda kadr hazırlanmışdır (1, iş№2, s.8-10; №5, s.3, 6,8). Hər il həmin ölkələrdən respublikamızda təhsil almaq, elmi təcrübə keçmək və elmi dərəcə almaq üçün yüzlərdlə gənc gəlmişdir. Məsələn, 1980-ci ildə 2000-dən çox, 1981- ci ildə 2200-ə qədər, 1982-ci ildə 1800-dən artıq, 1983-cü ildə 2300-ə qədər, 1984-cü ildə 2000-dən çox, 1985-ci ildə isə 2500-ə qədər gənc respublikamızda müxtəlif ixtisaslar üzrə təhsil almışlar (1, iş№4, s.2; iş №7-11; 22, s.102).

80-ci illərdə respublika elmi fkiri respublikanın təkcə yuxarıda adları çəkilən qitə ölkələri ilə yox, o eyni zamanda inkişaf etmiş kapitalist ölkələri ilə yaranmış humanitar əlaqələrinin inkişafında və genişlənməsində özünəməxsus və öz imkanları çərçivəsində mühüm rol oynamışdır. Azərbaycan elminin səsi dünya kapitalizm sisteminin demək olar ki, bütün ölkələrindən gəlirdi, onun elm və texnikanın müxtəlif sahələrində əldə etdiyi yüksək nailiyyətləri kapitalist dünyanın elmi fikrini özünə cəlb etmişdir. Nəticədə həmin dövrdə Azərbay Can elmi fikrinin müxtəlif kapitalist ölkələrinin bu sahədə yaranmış potensialları ilə sıx əlaqəsi yaranmışdır. Bu əlaqələr fimzika, riyaziyyat, kimya, geologiya, neft kimyası, biologiya, fiziologiya, cdoğrafiya və digər elm sahələrini əhatə etmiş və müxtəlif istiqamətlərdə özünü göstərmişdir. Onlar kapitalist ölkəldərində olan öz həmkarları ilə birgə tədqiqatlar aparmış, elmi məlumatlar, ədəbiyyat və təcrübə mübadiləsi həyata keçirmiş, bir-birinə qonaq (elmi məqsədlər üçün) getmiş, birgə konqreslər və konfranslar keçirmək, bir-birinin ölkəsində elmi-texniki simpoziumlarda iştirak etmək üçün səfər etmiş və digər sahələrdə geniş əlaqələr qurmuşdurlar. Təkcə bunu göstərmək kifayətdir ki, həmin illərdə Azərbaycan elminin kapitalist ölkələrinin 350-dən 400-ə qədər elmi idarə və təşkilatı ilə əlaqədəri olmuşdur. Təkcə Elmlər akademiyasının elmi kitabxanası həmin ölkələrə 50000-dən yuxarı elmi ədəbiyyat göndərmiş, öz növbəsində isə kpaitalist ölkələrinin elmi idarə və təşkilatlarından 55000 ədə elmi ədəbiyyat və məlumat materialları almışdır. Bu sahədə M.F.Axundov adına Respublika fundamental kitabxanasının işi də təqdirəlayiqdir. Belə ki, tədqiqa olunan illərdə kitabxana həmin ölkələrə 9000-dən artıq ədəd elmi-kütləvi ədəbiyyat yollanmuş, öz

növbəsində isə 4800 ədədə yaxın elmi ədəbiyyat almışdır (21, s.90-110, 86; 22, s.109, 4, iş s.7-8). Bu əlaqələrin əhəmiyyətli ondan ibarət olmuşdur ki, onlar təkcə Azərbaycan elminin sadəcə olaraq kapitalist ölkələrində tanınmasına və təbliğində xidmət etməmiş, həm də respublika elmi-texniki fikrinin dünya elmi fikrinin inkişafına təsir etməsinə imkan yaratmış, onun dünyada elmi sistemində öz yerini tutmasına köək etmişdir. Təsadüfi deyil ki, həmin illərdə (1986-cı ilin yanvarına olan məlumat) Azərbaycan alimlərinin əsərləri 40-dan çox inkişaf etmiş kapitalsit ölkələrində 30 ildə çapdan çıxmışdır.

Gətirdiyimiz dəlillərdən göründüyü kimi, tədqiq etdiyimiz illərdə Azərbaycan elmi fikrinin inkişaf etmiş kapitalist dövlətləri ilə əhyata keçirdiyi əlaqələri müxtəlif formalarda olmuşdur.ö həmin əlaqə istiqamətləri içərisində ən geniş yayılmış forma həmin ölkələrdə elmi ezamiyyət, elmi-turizm və təcrübə mübadiləsi məqsədilə yaranmış əlaqələr lolmuşdur. Məsələn, elmi cəhətdən təhlil edib öyrəndiyimiz dövrdə Azərbaycan elminin müxtəlif sahələrinin 450-dən yuxarı nümayəndəsi göstərilən məqsədlə həmin ölkələrdə olmuş, öz növbəsində isə həmin ölkələrdən elmi fikrin 1200-dən yuxarı nümayəndəsi respublikamızda qəbul olunmuşdur (21, s.54-100, 82-84, 50-56, 89-91, 68-71).

Tədqiqat dövründə kapitalist ölkələri alimləri ilə Azərbaycan alimləri arasında olan əlaqələrin ən geniş formalarından biri beynəlxlaq elmi konqreslərdə, qurultaylarda, simpoziumlarda və başqa beynəlxalq xarakter daşıyan elmi tədbirlərdə birgə iştirakı olmuşdur. Məsələn, həmin illərdə Azərbaycan alimləri kapitalist ölkələrinin alimləri ilə birlikdə respublikamızda keçirilən 30-dan çox beynəlxalq elmi tədbirdə iştirak etmişlər (21, s.54-60, 100-102, 78-80, 85-88, 90-91). Həmin tədbirlərin kapitalist ölkələrindən olan iştirakçıları Azərbaycan alimlərinin müxtəlif elm sahələrinə aid məruzələrini dinləmiş, özləri də müxtəlif problemlər üzrə çıxışlar etmişlər.

Göstərilən məqsədlə Azərbaycan alimləri dlünyanın müxtəlif kapitalist ölkələrində keçirilən 50-dən yuxarı elmi konqresdə, qurultayda, konfransda, sessiyalarda, simpoziumlarda fəal iştirak etmiş və elmi məruzələrlə çıxışlar etmişlər. Bu dövrdə bizim alimlər ABŞ-da keçirilmiş 10, Fransada keçirilmiş 9, Yaponiyada keçirilmiş 5, İtaliyada keçirilmiş 5, beynəlxalq elmi tədbirdə iştirak edərək çıxış etmişlər (23, s.119-120).

Beləliklə, tədqiq olanın illərdə Azərbaycan Respublikası müstəqil xarici siyasət sisteminə malik olmasa da, onun elmi dünyada gedən humanitar proseslərin inkişaf edib genişlənməsində özünəməxsus yerini təmin etmək üçün milli elmi potensialının bütün imkanlarından istifadə etmiş və beynəlxalq aləmdə humanitar sahədə gedən əməkdaşlığa öz töhvəsini vermişdir.

### *ƏDƏBİYYAT:*

1.Azərbaycan Ali və Orta Təhsili Nazirliyinin dövrü arxivi.
2.Azərbaycan SSR-i Nazirlər Soveti yanında Dövlət plan Komitəsinin dövrü arxivi.
3.«Kommunist» qəzeti
4.Azərbaycan SSR-i Elmlər Akademiyasının Elmi kitabxanasının dövrü arxivi
5.Azərbaycan SSR-i Elmlər Akademiyası xarici əlaqələr şöbəsinin dövri arxivi
6.Azərbaycan SSR-i Elmlər Akademiyasının Rəyasət Heyətinin dövrü arxivi
7.Azərbaycan Xarmici İşlər nazirliyinin dövri arxivi
8.Azərbaycan SSR-i Nazirlər Soveti yanında Dövlət Plan Komitəsinin dövrü arxivi
9.«Bakı» qəzeti
10.M.F.Axundov adına Respublika kitabxanasının dövri arxivi
11.Sayadov S.A.XX əsr: Azərbaycan və dünya. Bakı, 2006. – 285 s.
12. Газета «Баку».
13.Газета «Правда».
14.Газета «Вышка».
15.Газета «Бакинский рабочий».

16.Газета «Молодежь Азербайджана».
17.Журнал «Международная жизнь».
18.Журнал «В мире книг».
19.Журнал «Коммунист Азербайджана».
20.Нефт Кимйа Институтунун дюври архиви.
21.Отчет о деятельности Академии Наук Азербайджанской ССР. За 1980-1990 гг.
22.Саядов С.А. По законам интернационализма. М., 1983-269 с.
23.Саядов С.А. Интернационализм – наше знамя. Баку, 1985. – 199 с.
24.Саядов С.А. Азербайджан: международные связи и взаимоотношение. Баку, 191. – 223 с.
25.Саядов О.С. XX век: Азербайджан в системе международных отношений СССР. Баку, 2005.-320 с.

ЗАКИЯ МУСАЕВА
*Диссертант Института Истории им.А.А.Бакиханова НАН Азербайджана*

**НА СТАТЬЮ НАУКА АЗЕРБАЙДЖАНА В СИСТЕМЕ МЕЖДУНАРОДНЫХ ГУМАНИТАРНЫХ СВЯЗЕЙ»**

Как видно из названии представленной статьи Мусаевой Закии, она посвящена одной из актуальных проблем международных отношений.

Здесь рассматриваются основные направления, характер формы, методы, содержание, специфика и масштабы участия Азербайджанской научной мысли в международных гуманитарных отношениях с международным миром.

Ценность этой исследования заключается в том, что здесь автор на основе богатых, конкретных и фактических материалов обобщает опыт, накопленной в указанной области между национальным потенциалом и государствами мира, дает политическую оценку этому опыту и показывает его значение в расширении всесторонних отношений Азербайджана этими государствами в различных сферах общественной жизни в будущем.

ZAKIYYA MUSAYEVA
*A candidate for a degree of Institute of History named after A.A.Bakikhanov under Azerbaijan NAS*

**ON ARTICLE NAMED AS AZERBAIJAN SCIENCE IN INTERNATIONAL HUMANITARIAN RELATIONS SYSTEM**

As it is seen from the name of the article presented by Musayeva Zakia, it is devoted to one of actual problems of international relations.

There are considered main directions, nature of form. Methods, content, specificity and participation scale of Azerbaijan scientific idea with respect to international humanitarian relations with international peace.

The value of this research work consists of the fact that based on valuable, certain and actual facts the author summaries the experience total in the mentioned field between national potential and state of the world, politically evaluates this experience and shows its importance with respect to extending overall relations of Azerbaijan with these states in different areas of social life in the future.

***Rəyçilər: t.e.d.S.A.Sayadov, t.e.d.M.C.Qasımlı.***
***ADİU-nun «Azərbaycan tarixi» kafedrasının 27 fevral 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görüşlmüşdür (protokol №08).***